# QADINLARA AİD OLAN ŞƏRİ HÖKMLƏR

# QADINLARA AİD OLAN ŞƏRİ HÖKMLƏR

*Gürcüstan Müsəlmanları İdarəsi 2021*

# QADINLARA AİD OLAN ŞƏRİ HÖKMLƏR

İslam şəriətində qadınlarla bağlı fiqh kitablarına öz əksini tapan və müxtəlif mövzular haqqında geniş şəkildə izah edilən bir sıra özünəməxsus hökmlər vardır. Bu kitabçada qadın oxucularımızın problemlərinin bir qismini həll etmək üçün onları maraqlandıran bir sıra şəriət hökmlərini qeyd edirik.

## QÜSL

Vacibi qüsllər yeddidir:

***Vacib qüsllərin növləri***

- 1- Kişilər və qadınlar arasında müştərək olan qüsllər
  - 1-Cənabət
  - 2- Məshi meyyit
  - 3- Meyyit
  - 4- Nəzir, and içmə və sair səbəblə vacib olan qüsllər
- 2-Qadınlara məxsus olan qüsllər
  - 1- Heyz
  - 2- İstihazə
  - 3- Nifas

### *Cənabət qüsulu*

***1-Cənabətin səbəbləri***[1]

- 1- Məninin bayıra çıxması
  - – İstər az olsun, istərsə də çox;
  - – İstər yuxuda olsun, istərsə də oyaq olan vaxt;
- 2-Cima (cinsi əlaqə)
  - – İstər halal, istərsə də haram yol ilə olsun;
  - – İstər məni gəlsə, istərsə də gəlməsə;

2– Əgər məni öz yerindən hərəkət etsə, amma çölə gəlməsə, yaxud məninin çölə gəlib-gəlməməsində şəkk etsə, qüsl vacib deyil.

3– İnsandan bir rütubət xaric olduqda, onun bövl, məni və ya başqa bir şey olduğunu bilməsə, əgər aşağıdakı hallar baş verərsə, məni hökmündədir:[1]

---

[1] Lənkərani. T.m, məs.348; Sistani. T.m, məs.352,
- Xamenei. "Əcvibətül-istiftaat", sual 189

- Şəhvətlə bayıra gəlsə;
- Sıçrayışla bayıra gəlsə;
- Gələndən sonra bədən süstləşsə;

4– Əgər bu üç əlamətdən heç biri, yaxud bəzisi olmasa, məni hökmündə deyil. Amma xəstə şəxslərdə* təkcə bir nişanənin olması, yəni şəhvətlə gəlməsi kifayətdir.[1]

## *Cünuba haram olan işlər*

Cünub şəxsə beş şey haramdır:

1- Bədəninin hər hansı bir yerini Quranın yazısına, yaxud Allahın mübarək adına vurmaq; Peyğəmbərlərin (s) və İmamların** (ə) adları da ehtiyati-vacibə görə, Allahın adının hökmündədir.
2- Məscidül-Hərama və Peyğəmbərin (s) məscidinə getmək; hətta əgər bir qapısından daxil olub digərindən çıxmaqla olsa belə;
3- Başqa məscidlərdə dayanmaq; amma bir qapısından daxil olub, başqa qapısından çıxsa, eybi yoxdur. Ehtiyati-vacib budur ki, İmamların (ə) hərəmində də dayanmasın.
4- Məscidə bir şey qoymaq.***
5- Vacibi səcdəsi olan surələri oxumaq.

***Vacib səcdəsi olan surələr bunlardır:***

- 32 -ci surə ⇨ ***Səcdə*** (ayə15)
- 41-ci surə ⇨ ***Fussilət*** (ayə 37)
- 53-cü surə ⇨ ***Nəcm*** (axırıncı ayə)
- 96-cı surə ⇨ ***Ələq*** (axırıncı ayə)

---

* Lənkərani. Qadın və xəstə şəxslərdə... T.m, m.348

[1] Sistani. T.m, məs.352

** Sistani: Peyğəmbərlərin (s), İmamların (ə) və Həzrəti Zəhranın (s.ə) da adlarına toxundurmaması daha yaxşıdır. T.m, məs.361

*** Sistani: Məsciddən bir şey götürmək haramdır və məscidə bir şey qoymaq ehtiyati vacibə görə haramdır.

## *Bir neçə şəri suala cavab:*

***Sual:*** Cənabət qüsulundə suyun bədəndə axması şərtdirmi?

***Cavab:*** Şərt budur ki, bədənin yuyulması "qüsl" niyyəti ilə olsun; suyun bədəndə axması isə şərt deyildir.

***Sual:*** Cənabət qüslü alan şəxsdən qüsl əsnasında yalnız dəstəmazı batil edən işlərdən biri baş verərsə, qüslü əvvəldən başlamalıdır, yoxsa elə həmin qüslü tamamlayıb dəstəmaz almalıdır?

***Cavab:*** Bu halda qüslü əvvəldən başlamaq vacib deyil. Dəstəmaz almaq lazımdır.

***Sual:*** Heyz halında cənabət qüslü düzdürmü, bu qüsl cünub olan qadının vəzifəsini boynundan götürərmi?

***Cavab:*** Fərz olunan halda qüslün düzlüyü şübhəlidir.[1]

# QÜSL ETMƏYİN QAYDASI

Qüsl edərkən, istər qüsl cənabət qüslü kimi vacib qüsllərdən olsun, istərsə də cümə qüslü kimi müstəhəb qüllərdən olsun, bütün bədən, baş və boyun yuyulmalıdır.

Qüsl etməyin qaydası bütün qüsllər üçün eynidir, yalnız niyyətləri fərqlidir.

***Qüsl etməyin qaydası***
- ***1-Tərtibi***
  - Baş və boyun, sonra bədənin sağ tərəfi, daha sonra isə bədənin sol tərəfi yuyulmalıdır.*1
- ***2-İrtimasi***[2]
  - Qüsl niyyəti ilə bir dəfəyə suya girsə və bədən bütövlüklə suyun altında olarsa;
  - Yaxud qüsl niyyəti ilə tədrici olaraq suya girsə və su bütün bədənini əhatə edərsə;

---

[1] Xamenei. "Əcvibətül-istiftaat", sual 187

* Sistani: Ehtiyati-lazıma əsasən qüsl niyyəti ilə əvvəl baş və boyun, daha sonra bədən yuyulmalıdır. T.m, məs.367

[2] Lənkərani. T.m, məs.362; Xamenei. "Əcvibətul-istiftaat", sual 207

## *Bir neçə məsələ:*

1– Dəstəmazın düzgün olması üçün qeyd olunan bütün şərtlər (suyun pak olması, qəsbi olmaması və s.) qüslün də düzgün olmasında şərtdir. Amma qüsldə bədəni yuxarıdan aşağıya yumaq vacib deyil. Həmçinin, tərtibi qüsldə hər hissəni yuduqdan sonra növbəti hissəni dərhal yumaq vacib deyil.

2– Boynunda bir neçə vacibi qüsl olan bir kəs həm onların hamısını niyyət edərək bir qüsl ala bilər, həm də onların hər biri üçün ayrılıqda qüsl ala bilər.

3– Cənabət qüslü alan bir kəs namaz üçün dəstəmaz almamalıdır.

4– Qüsl alanda "vacib (və yaxud müstəhəb) niyyəti ilə qüsl alıram" – deyə niyyət etməsi lazım deyil. Əgər yalnız qürbət, yəni Allah-Təalanın fərmanını yerinə yetirmək məqsədi ilə qüsl etsə, kifayətdir.

5– İrtimasi qüsldə bədənin hər yeri pak olmalıdır.Amma tərtibi qüsldə bədənin hamısının pak olması lazım deyil. Belə ki, əgər bədənin hamısı nəcis olsa və hər hissəni qüsl etməmişdən qabaq suya çəksə, kifayətdir.*

6– Cəbirə qüsulu cəbirə dəstəmazı kimidir.** Amma ehtiyati-vacibə əsasən onu irtimasi deyil, tərtiblə yerinə yetirmək lazımdır.

7– Vacib oruc tutan, yaxud Həcc və ya ümrə üçün ehram bağlayan bir kəs irtimasi qüsl edə bilməz. Amma əgər unutqanlıq üzündən irtimasi qüsl etsə, düzgündür.

8– ***Aşağıdakı hallarda qüsl batildir***:

❈ Tərtibi qüsldə əgər bir kəs qəsdən, yaxud unutqanlıq və ya məsələni bilməməzlik üzündən tərtibə riayət etməsə, qüslü batildir.

❈ Əgər irtimasi qüsldən sonra bədəninin bir hissəsinə suyun çatmadığını başa düşsə, istər onun müəyyən şəkildə hansı yer olduğunu bilsin, istərsə də bilməsin, yenidən qüsl etməlidir. [1]

---

* Sistani: İrtimasi və tərtibi qüsldən əvvəl bədənin hər tərəfinin pak olması vacib deyil. Belə ki, qüsl niyyəti ilə suya baş vurduqda və ya bədənə su tökdükdə bədən paklanarsa, qüsl düzgündür. Bu şərtlə ki, qüsl tökülən su paklığını itirməsin. (Məsələn:kürr suyu olsun.) T.m, məs.378

** Sistani: Meyyit qüslündən başqa bütün qüsllər cəbirə qüslü, cəbirə dəstəmazı kimidir. Amma... T.m, məs.345

[1] Lənkərani. T.m, məs.370; Sistani. T.m, məs.375

❈ Əgər qüsldə bir yer iynənin ucu qədər yuyulmamış qalsa, qüslü batildir. Amma bədənin görünməyən yerlərini (qulağın, burunun içi kimi) yumaq vacib deyil.

❈ Suyun bədənə çatmasına mane olan şeylər aradan qaldırılmalıdır. Əgər aradan qaldırılmasına yəqin etmədən qüsl etsə, qüslü batildir.[1]




## *Bir neçə şəri suala cavab:*

***Sual:*** Vacib, yaxud müstəhəb qüsl alan zaman üzü qibləyə dayanmaq vacibdirmi?

***Cavab:*** Qüsl alanda üzü qibləyə doğru dayanmaq vacib deyil.[2]

***Sual:*** Qüsl edəndə qadının saçlarının ucunu yuması vacibdirmi? Həmçinin, qüsl edəndə su başın dərisinin hər yerinə yetişsə, amma saçların hər yerinə

---

[1] Lənkərani. T.m, məs.378; Sistani. T.m, məs.383

** Sistani: ... Ehtiyati müstəhəbə görə ... T.m, məs.371

*** Sistani: ... Ehtiyati vacibə əsasən həmin miqdarı yuduqdan sonra bədəni də yumalıdır.

[2] Xamenei. "Əcvibətül-istiftaat", sual 197

çatmasa, qüsl batil olurmu? Halbuki suyun başdakı dərinin hər yerinə çatmasını bilirik.
***Cavab:*** Vacib ehtiyata əsasən saçların hər yerini yuması vacibdir.
***Sual:*** Cənabətdən başqa qüsllər də dəstəmaz almamağa kifayət edirmi?
***Cavab:*** Vacib ehtiyata əsasən kifayət etmir. [1]

[1] Xamenei. "Əcvibətül-istiftaat", sual 202

## *Qüsldə şəkk*[1]

- ***1. Qüsl etməyə şəkk;*** (Qüsl edib-etməməsinə şəkk etsə) ⇨ Yenidən qüsl etməlidir
- ***2. Qüslü düzgün edib-etməməyə şəkk***
  - 1- Qüsl tamam olduqdan sonra şəkk etsə ⇨ Yenidən qüsl etməsi lazım deyil
  - 2- Qüsl əsnasında şəkk etsə*
    - 1- Bədənin sol tərəfinin yuyulmasına şəkk etsə ⇨ Həmin miqdarı yumaq kifayətdir
    - 2-Bədənin sağ tərəfinin yuyulmasına şəkk etsə
      - 1– Sol tərəfi yumağa başlayandan sonra şəkk etsə ⇨ Şəkkinə etina etməməlidir
      - 2– Sol tərəfi yumağa başlamazdan əvvəl şəkk etsə ⇨ Həmin hissə yuyulduqdan sonra sol tərəf yuyulmalıdır
    - 3-Boyun və başı yuyarkən şəkk etsə
      - 1– Sağ tərəfi yumağa başlayandan sonra şəkk etsə ⇨ Şəkkinə etina etməməlidir
      - 2– Sağ tərəfi yumağa başlamazdan əvvəl şəkk etsə ⇨ Həmin hissə yuyulduqdan sonra sağ tərəfi yumalıdır

3- **Əgər qüsl edən vaxt, bədənində suyun bədənə çatmasına mane olan bir şeyin olub-olmamasında şəkk etsə** ⇨ bu halda onun şəkkinin mənşəyi əql olsa, axtarış aparmalıdır ki, orada maneənin olmamasına yəqinlik hasil etsin.**

---

[1] Lənkərani. T.m, məs.367, 378, 386; Sistani. T.m, məs.372, 384, 391

** Sistani: Əgər qüsl edən vaxt, bədənində suyun bədənə çatmasına mane olan bir şeyin olub-olmamasında şəkk etsə, maneənin olmamasına xatircəmlik əldə edənə qədər axtarış aparmalıdır. T.m, məs.384

# QADINLARA MƏXSUS QÜSLLƏR

Vacib qüsllərdən üçü, yəni heyz, istihazə və nifas yalnız qız və qadınlara aiddir. Bu qüsllərin səbəbi bətndən gələn qandır və hər bir qüslün özünə məxsus əhkamı vardır ki, bu dərsdə onlardan bəhs edəcəyik.

### *Heyz qüsulu. (Adət)*

Heyz, əksərən, hər ayda bir neçə gün müddətində qadınların bətnindən xaric olan bir qandır. Qadın heyz gördükdə haiz adlanır.

### *Heyz qanının əlamətləri*

Heyz qanı əksər hallarda aşağıdakı əlamətlərlə olur. [1]

- Qaraya çalan qırmızı rəngdə
- Qəliz
- İsti
- Təzyiqlə və azacıq yandırıcı halda

### *Heyz qanının şərtləri*

Heyz qanının bir necə şərti vardır. Əgər o şərtlərdən biri olmazsa, həmin qan heyz deyildir.

***Heyz qanının şərtləri***

- Həddi-büluğ
- Yaisəlikdən əvvəl
- Üç gündən az olmasın
- On gündən çox olmasın
- Üç gün ardıcıl gəlsin
- Üç gün davamlı gəlsin
- İki heyz qanı arasında ən azı on gün fasilə olsun.

***Həddi büluğ*** ⇨ Qızın həddi büluğdan əvvəl, yəni (qəməri təqvimi ilə) 9 yaşı tamam olmamışdan əvvəl, gördüyü qan heyz qanı deyildir.[2]

[1] Lənkərani. T.m, məs.435; Sistani. T.m, məs.440
[2] Lənkərani. T.m, məs.437; Sistani. T.m, məs.442

***Yaisəlik yaşından əvvəl*** ⇨ *Seyyidə olan qadınlar altmış, seyyidə olmayan qadınlar isə əlli yaşları (qəməri təqvimi ilə) tamam olduqdan sonra yaisə olurlar, yəni heyz qanından kəsilirlər.
1– Qadının yaisə olduqdan sonra gördüyü qan, heyz qanı deyildir.

***Üç gündən az və on gündən çox olmamalıdır*** ⇨ Heyzin müddəti üç gündən az, on gündən çox olmur, əgər üç gündən azacıq az olsa, heyz deyildir.

***Üç gün ardıcıl gəlməlidir*** ⇨ Heyz qanı üç gün ardıcıl gəlməlidir. Deməli əgər misal üçün, iki gün qan görüb bir gün paklansa və yenidən bir gün qan görsə, heyz deyildir.

***Üç gün davamlı gəlməlidir*** ⇨ Heyz başlayarkən qanın bayıra gəlməsi şərtdir. Tamam üç gün ərzində qanın çölə gəlməsi lazım deyil, hətta əgər övrətinin daxilində də qan olsa, kifayətdir. Bu üç gün ərzində də qan olsa, kifayətdir. Bu üç gün ərzində bir qədər müxtəsər olaraq pak olsa, belə ki, onun pak olma müddəti çox az olub nəzərə çarpmasa və nəticədə "Üç gün onun övrətində qan vardır" deyilsə, yenə də heyzdir.
1– Birinci və dördüncü gecədə qan görməsi lazım deyil. Amma ikinci və üçüncü gecələrdə qan dayanmamalıdır. Deməli, əgər birinci günün sübh azanından üçüncü günün qürubuna qədər ardıcıl olaraq qan gəlsə; yaxud birinci günün ortalarında başlayıb dördüncü günün həmin vaxtında dayansa və ikinci və üçüncü günün gecələrində heç dayanmasa heyzdir.[1]
***Qeyd:*** "Heyz günləri arasında ardıcıllıq"- dedikdə, heyz qanı gələn günlərin bir-birinin ardınca, fasiləsiz olması nəzərdə tutulur. "Heyz qanının üç gün davamlı olması"-dedikdə isə qanın üç gün ərzində kəsilməməsi nəzərdə tutulur. Amma qanın qısa müddətdə kəsilməsinin eybi yoxdur.

***İki heyz qanı arasında ən azı on gün fasilə olmalıdır*** ⇨ Əgər birinci heyz qanından on gün keçməmişdirsə, qadının yenidən gördüyü qan heyz qanı deyildir.[2]
***Qeyd:*** Hamilə və uşağa süd verən qadının heyz görməsi mümkündür.

---

* Sistani: Qadınların altmış yaşından sonra gördükləri qan heyz hökmündə deyildir. məs.441
[1] Lənkərani. T.m, məs.444; Sistani. T.m,məs.449
[2] İmam Xomeyni. "Təhrirul vəsilə", I cild, səh. 44

1– Bir aydan məqsəd ayın əvvəlindən axırına qədər deyil, qanın görünməyə başlamasından otuz gün keçənə qədərdir.
2– Adət üzrə ayda bir dəfə qan görən qadın, əgər bir ayda iki dəfə qan görsə və onda heyzin əlamətləri olsa, onda arada pak olduğu günlərin sayı on gündən az olmasa, hər ikisini heyz hesab etməlidir.
3– Əgər üç gün, yaxud üç gündən artıq heyzin əlamətləri olan qan görüb, sonra on gün, yaxud daha artıq istihazənin əlamətləri olan qan görsə və yenidən üç gün heyz əlamətləri olan qan görsə, (heyzin əlamətləri olan) birinci və axırıncı qanları heyz hesab etməlidir.
4– Əgər qadın on gün tamam olmamışdan qabaq, yaxud on gün tamam olan vaxt qandan pak olsa, hamısı heyzdir; yox əgər on gündən keçsə, bu halda öz adəti müddətini heyz, qalanlarını isə istihazə hesab edib adət günlərindən sonra yerinə yetirmədiyi ibadətləri qəza etməlidir.[1]

[1] Lənkərani. T.m, məs.506

**Əgər qadın on gündən qabaq pak olsa[2]**

- 1– Batinində qan olmadığını bilsə ⇨ Qüsl
- 2– On gün tamam olmamışdan qabaq yenidən qan görəcəyini güman etsə belə ⇨ Qüsl
- 3– On gün tamam olmamışdan qabaq yenidən qan görəcəyinə yəqinliyi olsa* ⇨ Qüsl etməməlidir, namaz qıla bilməz və haizin hökmlərinə əməl etməlidir

**Əgər qadın on gündən qabaq pak olsa və batinində qan olduğuna ehtimal versə, bir miqdar pambığı daxilinə qoymalı, bir az gözləyib sonra çıxartmalıdır[3]**

- 1-pambıq pakdırsa ⇨ Qüsl edib ibadətlərini yerinə yetirməlidir
- 2– Pambıq pak deyilsə (bulaşıbsa), hətta əgər sarı rəngli suya bulaşmış olsa da
  - 1– Əgər heyz adəti yoxdursa (müztəribə, nasiyə, mübtədiə) və ya adəti on gündürsə ⇨ Gözləməlidir, on gündən tez pak olsa, qüsl etməlidir
  - 2– Əgər (onuncu günün tamam olduğu vaxt) pak olsa, yaxud qanı on gündən keçsə ⇨ On günün tamamında qüsl etməlidir
  - 3– Əgər adəti on gündən azdırsa, on günü tamam olmamışdan qabaq, yaxud on günün tamamında pak olacağını bilsə ⇨ Qüsl etməlidir

---

[1] Lənkərani. T.m, məs.505; Sistani. T.m,məs.511

* Sistani: ... ehtiyata əsasən qüsl edib, ibadətlərini yerinə yetirməli, heyz qadına haram olan işləri də tərk etməlidir.

[2] Lənkərani. T.m, məs.506; Sistani. T.m,məs.512

# HAİZ QADINLARIN NÖVLƏRİ

**Haiz qadınların növləri**

- 1-Adəti yoxdur
  - 1- nasiyə
  - 2- müztəribə
  - 3- mübtədiə
- 2-Adəti vardır
  - 1- Vaxtı müəyyəndir (vəqtiyyə)
  - 2- Ədədi müəyyəndir (ədədiyyə)
  - 3-Vaxtı və ədədi müəyyəndir (vəqtiyyə və ədədiyyə)

***Haiz qadınların növləri***[1]

| | |
|---|---|
| 1- ***Vəqtiyyə və ədədiyyə adət sahibi olan*** ⇒ | İki ay eyni vaxtda heyz görüb və hər iki ayda heyz olduğu günlərin sayı bir-birinə bərabər olan qadına deyilir |
| 2- ***Vəqtiyyə adət sahibi olan qadın*** ⇒ | Hər iki ayın eyni günlərində heyz qanı görüb, amma bu aylarda heyz gördüyü günlərin sayı bir-birinə bərabər olmayan qadına deyilir |
| 3- ***Ədədiyyə adət sahibi olan qadın*** ⇒ | iki ayda qan gördüyü günlərin sayı bərabər olub, amma qan gördüyü günlərin vaxtı eyni olmayan qadına deyilir |
| 4- ***Müztəribə*** ⇒ | Bir neçə ayda qan görüb, amma müəyyən bir adəti olmayan, yaxud adəti pozulub təzə bir adət tapmayan qadına deyilir |
| 5- ***Mübtədiə*** ⇒ | İlk dəfə heyz qanı görən qadına deyilir |
| 6- ***Nasiyə*** ⇒ | Öz adətini unutmuş qadına deyilir |

[1] Lənkərani.T.m,məs.478; Sistani. T.m, məs.484

## *Vəqtiyyə və ədədiyyə adət sahibi olan qadın*

1– Heyzdə adətinin müəyyən vaxtı olan qadın (vəqtiyyə və ədədiyyə adət sahibi və vəqtiyyə adət sahibi) əgər adət dövründə, yaxud "heyz irəliyə atmışdır."[*] – deyiləcək şəkildə iki-üç gün vaxtından qabaq qan görsə, (hətta o qanda heyz əlamətləri olmasa belə) haiz qadın üçün deyilən hökmlərə əməl etməlidir. Əgər sonra heyz olmadığını başa düşsə (məs: üç gün tamam olmamış pak olsa), bu müddətdə yerinə yetirmədiyi ibadətlərin qəzasını etməlidir.

***Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər adətindən bir neçə gün qabaq, adətinin bütün günlərində və adətdən bir neçə gün sonra qan görərsə***[2]

- 1- ***Gələn qan üst-üstə 10 gündən çox olmazsa*** ⇒ Hamısı heyzdir
- 2- ***Gələn qan üst-üstə 10 gündən çox olarsa*** ⇒ Yalnız adət günlərində gördüyü qan heyz, ondan əvvəl və sonra gördüyü qan isə istihazədir

2– Vəqtiyyə və ədədiyyə adəti olan qadın əgər on gündən artıq qan görsə, adəti günlərində gördüyü qan (hətta heyzin əlamətləri onda olmasa da) heyzdir; və adəti günlərindən sonra gördüyü qan (hətta heyz əlamətləri də onda olsa) istihazədir.[3]

[*] Lənkərani:... "heyz irəliyə atmışdır" və ya "təxirə düşmüşdür"-deyiləcək şəkildə iki-üç gün əvvəl, ya sonra qan görsə, hətta bu qanda heyzin əlamətləri olmasa da, haiz qadın üçün deyilən hökmlərə əməl etməlidir...

## *Vəqtiyyə adəti olan qadın*

***Vəqtiyyə adəti olan qadın əgər 10 gündən artıq qan görərsə*[1]**

- 1-***Qanı əlamətlərlə təyin edə bilərsə*** ⇨ Heyz əlamətləri olan günləri heyz, qalanını isə istihazə hesab etməlidir
- 2- ***Qanı əlamətlərlə təyin edə bilməzsə****
  - 1– Əgər qohumların (istər ata, istərsə də ana tərəfdən olsun, istər diri, istərsə də dünyadan getmiş olsun) hamısının adət günlərinin miqdarı evni olarsa ⇨ Qohumların adət günlərinin miqdarını özü üçün heyz hesab etməlidir**
  - 2– Əgər qohumları olmasa və ya qohumlarının adət günlərinin sayı bir-biri ilə eyni olmasa ⇨ Bu halda hər ayda qan gördüyü günlərdən üç, yaxud altı, yaxud da yeddisini heyz, qalanlarını istihazə hesab etməlidir. Sonrakı aylarda da həmin miqdarı heyz hesab etməlidir

---

[1] Lənkərani. T.m, məs.489, 491

* Sistani: ...bəzi qohumlarının adət günlərinin miqdarını aşağıdakı iki şərtlə özü üçün heyz hesab etməlidir (istər ata, istərsə də ana tərəfdən, istər diri, istərsə də dünyadan getmiş qohum olsun);

1. Həmin qadının adət miqdarının öz adət miqdarı ilə zidd olduğunu bilməsə, məs: özü cavan və səhhəti qüvvətli olduğu halda adətini özü üçün heyz hesab etdiyi qadının yaisə yaşına yaxın olması kimi (adətən bu yaşda adət miqdarı az olur və ya əksinə)
2. Həmin qadının adət miqdarının birinci şərtdə olduğu kimi başqa qohumlarının adət miqdarı ilə fərqli olduğunu bilməsə, amma bu fərq hesab olunacaq dərəcədə az olarsa, eybi yoxdur. T.m. məsələ:495

–Vəqtiyyə adəti olan qadın 10 gündən çox qan görərsə və onu yuxarıda deyilən qayda ilə təyin edə bilməsə, üç gündən on günə qədər öz heyz günlərinin sayına uyğun olan miqdarı heyz qəbul etmək ixtiyarına malikdir. Əlbəttə heyz hesab etdiyi günlərin sayının adət vaxtı ilə uyğun olması labüddür. T.m, məs.497

** Lənkərani:...Bu şərtlə ki, qohumlarının hamısının adət günlərinin sayı bir-biri ilə eyni olsun. Əgər onların bəzilərinin adəti məsələn, beş gün, bəzilərinin isə yeddi gün olarsa, onların adət günlərinin sayını özü üçün heyz götürə bilməz. Yalnız adəti fərqlənən qohumların sayları başqa qohumlarının müqabilində gözə çarpmayacaq dərəcədə az olarsa, bu halda onların əksəriyyətinin adətini özü üçün heyz götürməlidir. T.m, məs. 489

## *Ədədiyyə adəti olan qadın*

**Ədədiyyə adəti olan qadın əgər 10 gündən artıq qan görərsə**[1]

- ***1-Əgər gördüyü qanın hamısı eyni cür olarsa****[*] ⇨ Ehtiyati-vacibə görə qan gördüyü gündən etibarən adət günlərinə qədər heyz, qalan günləri isə istihazə hesab etməlidir
- ***2- Əgər gördüyü qanın hamısı eyni cür olmasa, bir neçə gün heyz, qalan günlərdə isə istihazə əlaməti olarsa***
  - 1- Əgər heyz əlamətləri olan günlərin sayı adət günlərinin sayı ilə eyni olarsa ⇨ Həmin günləri heyz, qalanını isə istihazə hesab etməlidir
  - 2- Əgər heyz əlamətləri olan günlərin sayı adət günlərinin sayından çox olarsa ⇨ Adət günlərinin miqdarını heyz, qalanını isə istihazə hesab
  - 3- Əgər heyz əlamətləri olan günlərin sayı adət günlərinin sayından az olarsa ⇨ Həmin günləri sonrakı bir neçə günə əlavə edib (birlikdə heyz günlərinin sayı qədərində) heyz, yerdə qalanını isə istihazə hesab etməlidir

---

[1] Lənkərani. T.m, məs.493; Sistani. T.m, məs.499

[*] Sistani: Qan gördüyü gündən etibarən adət günlərinə qədər heyz, qalan günləri isə istihazə hesab etməlidir. T.m, məs.499

## *Müztəribə olan qadın*

**Müztəribə olan qadın əgər 10 gündən artıq qan**

1– Əgər gördüyü qanın hamısı eyni cür olmasa, bir neçə gün heyz, qalan günlərdə isə istihazə əlaməti olarsa* ⟹ Heyz əlaməti olan günləri heyz, istihazə əlaməti olan günləri istihazə qərar verməlidir

2– Əgər gördüyü qanın hamısı eyni cür olarsa,** bu meyyarların ikisi birlikdə əsas götürülməlidir

- **1–Qohumların**
  - 1-Qohumlarının adəti yeddi gündən az olarsa: Məsələn beş gün olarsa, bu beş günü heyz hesab etməlidir. Ehtiyati-vacibə görə qohumlarının adət günlərinin yeddi gün ilə olan fərqi (yəni 2 gün) haizə haram olan işləri tərk etməli, istihazə əməllərini yerinə yetirməlidir
  - 2- Qohumlarının adəti yeddi gündən çox olarsa: Məsələn doqquz gün olarsa, yeddi gün heyz hesab edilməlidir. Ehtiyati-vacibə görə yeddi gün ilə onun qohumlarının adət günləri arasında olan fərqi (yəni 2 gün) istihazə əməllərini yetinə yetirməli, haizə haram olan əməlləri tərk etməlidir.
  - 3- Qohumlarının adəti yeddi gündürsə: Yeddi günü heyz, yerdə qalan günləri isə istihazə hesab etməlidir.
- **2-Yeddi**

---

** Sistani: ... belə ki, onların hamısında heyz əlaməti və yaxud istihazə əlaməti olarsa, ehtiyati vacibə görə vəqtiyyə adəti olan qadının on gündən artıq qan gördüyü və qanı əlamətlərlə təyin edə bilmədiyi halın hökmündə deyildiyi kimi qohumlarının bəzilərinin adət günlərini özü üçün heyz hesab etməlidir. Bu da mümkün olmadığı surətdə 495 və 497-ci məsələdə deyildiyi kimi üç ilə on gün arasında bir neçə günü heyz hesab etməlidir. T.m, məs.500

## *Mübtədiə olan qadın*

***Mübtədiə olan qadın əgər 10 gündən artıq qan görərsə***[1]

- 1–Əgər gördüyü qanın hamısı eyni cür olarsa* ⇨ Öz qohumlarının adətlərini (vəqtiyyədə deyildiyi kimi) heyz, qalanlarını isə istihazə hesab etməlidir
- 2- Əgər gördüyü qanın hamısı eyni cür olmasa, bir neçə gün heyz, qalan günlərdə isə istihazə əlaməti olarsa
  - 1-Heyz əlaməti olan qan üç gündən az və ya on gündən çox olmasa** ⇨ Heyz əlamətləri olan qan heyz və heyz əlamətləri olmayan qan isə istihazədir
  - 2– Heyz əlaməti olan qan üç gündən az*** və ya on gündən çox olarsa ⇨ Heyzin əlamətləri olan qanın əvvəlini heyzin əvvəli hesab etməli, heyz günlərinin sayında isə öz qohumlarına müraciət edib, qalanlarını isə istihazə hesab etməlidir

---

[1] Lənkərani. T.m, məs.496–498

* Sistani: 495-ci məsələdə deyilən 2 şərtlə qohumlarından birinin adət günlərinin miqdarını özü üçün heyz, qalanını isə istihazə hesab etməlidir. Bu da mümkün olmasa 497-ci məsələdə qeyd olunduğu kimi 3 günlə 10 gün arasında bir neçə günü özü üçün heyz hesab etməlidir. T.m, məs.502

** Sistani: ...hamısı heyzdir. T.m, məs.503

*** Sistani: Heyz əlaməti olan qan üç gündən az olarsa, həmin qanı heyz hesab etməlidir, onun sayını isə 501-ci məsələdə göstərildiyi kimi təyin etməlidir. T.m, məs.504

### *Nasiyə**

**Nasiyə olan qadın əgər 10 gündən artıq qan görərsə**[1]

- **1- Qanı əlamətlərlə təyin etmək mümkündürsə** ⇨ Heyz əlamətləri olduğu günləri on günə qədər heyz, qalanlarını isə istihazə hesab etməlidir
- **2-Qanı əlamətlərlə təyin edə bilməsə** ⇨ Ehtiyati-vacibə görə ilk yeddi günü heyz, qalanını isə istihazə hesab etməlidir

∗ Sistani: Nasiyə qadın bir neçə növdür;

Ədədiyyə adət sahibi olub adətinin miqdarını unudan qadının gördüyü qan

- – Üç gündən az on gündən çox olmazsa ⇨ Hamısı heyz hesab edilməlidir
- – On gündən çox olarsa ⇨ Müztəribə qadının hökmünə əməl etməlidir. Ancaq elə bir miqdar götürməlidir ki, bu miqdar öz heyz günlərinin sayından az və ya çox olmasın.

# HAİZ QADINA HARAM OLAN İŞLƏR

| | |
|---|---|
| ***Haiz qadına haram olan işlər***[1] | 1- Dəstəmaz, qüsl, yaxud təyəmmüm ilə yerinə yetirilməli olan ibadətlər,* amma dəstəmaz, qüsl və təyəmmüm lazım olmadığı ibadətləri (meyyit namazı kimi) yerinə yetirməsinin eybi yoxdur.<br>2-Cünub şəxsə haram olan işlər (cənabətin hökmlərində deyilib).<br>3-Fərcə (cinsiyyət üzvünə) cima etmək; həm kişi, həm də qadın üçün (hətta əgər dəllək kəsən yerə qədər daxil olsa və məni gəlməsə də) haramdır. Hətta ehtiyati-vacibə görə dəllək kəsən yerdən az da daxil edilməməlidir.** Haiz qadına (razı olduğu halda) arxadan yaxınlıq etməyin kəskin kərahəti var. |

***Əgər qadının heyz günləri üç yerə bölünsə və kişi öz qadını ilə*** qabaq tərəfdən cima etsə, ehtiyati-vacibə görə fəqirə kəffarə verməlidir.***[2]

1– Məsələn: altı gün heyz görən qadının əri birinci və ikinci gecədə (yaxud onun gündüzündə) onunla yaxınlıq etsə, on səkkiz noxud,• üçüncü və dördüncü gecədə (yaxud onun gündüzündə) yaxınlıq etsə, doqquz noxud, beşinci və altıncı günün gecələrində (yaxud gündüzlərində) yaxınlıq etsə, dörd noxud yarım qızıl kəffarə verməlidir.
2– Əgər kişi heyzin həm birinci, həm ikinci, həm də üçüncü hissəsində öz qadını ilə yaxınqlıq etsə, hər üç kəffarəni verməlidir ki, bu da 31,5 noxud qızıla bərabərdir.
3– Əgər kişi yaxınlıq halında qadının heyz olmasını başa düşsə, dərhal ondan ayrılmalıdır. Əgər ayrılmasa, ehtiyati-vacibə görə,* kəffarə verməlidir.[1]

---

**** Sistani: ... sikkəli qızıl
• Bir misqal 4,64 qramdır, 24 noxud bir misqaldır. Deməli, bir noxud misqalın 1/24-i qədərdir.
* Sistani: ... ehtiyati-müstəhəbə görə...
[1] Lənkərani. T.m, məs.459; Sistani. T.m, məs.464

4– Qadına heyz halında təlaq vermək (təlaq kitablarında deyildiyi kimi) batildir.
5– Əgər qadın "heyzəm", yaxud "heyzdən pak olmuşam" – desə,** onun sözü qəbul edilməlidir.
6– Əgər qadın namaz əsnasında heyz olsa, namazı batildir.
7– Əgər qadın namaz əsnasında heyz olub-olmamasında şəkk etsə, namazı səhihdir. Amma namazdan sonra, namaz əsnasında heyz olduğunu başa düşsə, qıldığı namaz batildir.
8– Qadın heyzdən pak olandan sonra qüsul etməmiş olsa da təlaq vermək səhihdir, əri də onunla yaxınlıq edə bilər.* Amma ehtiyati-müstəhəbə görə qüsuldan qabaq onunla yaxınlıq etməməlidir.
9 – Qadının heyz halında qılmadığı gündəlik namazların qəzası yoxdur. Amma vacibi orucların** qəzasını tutmalıdır.

10– Əgər namazın vaxtı daxil olsa və namazı təxirə salarsa, heyz olacağını bilsə, dərhal namazını qılmalıdır.

11 – Əgər qadın namazın axır vaxtında paklansa və qüsl, dəstəmaz və namazın sair müqəddimati işlərini görüb (paltar hazırlamaq, yaxud onu suya çəkmək) və bir rəkət və daha artıq namaz qılmaq üçün vaxtı olsa, namazı qılmalıdır. Əgər qılmasa, qəzasını yerinə yetirməlidir.

12– Namaz vaxtında heyzli qadının qanını təmizləməsi, pambığı və dəsmalı dəyişməsi, dəstəmaz alması, (əgər dəstəmaz ala bilmirsə, təyəmmüm etsin) və namaz qıldığı yerdə üzü qibləyə oturub zikr, dua, salavat deməsi müstəhəbdir.[1]

### *Nifas*

1– Uşağın ilk üzvü ananın bətnindən çıxdığı andan etibarən qadından gələn on gündən qabaq, yaxud on gün tamam olan müddətdə kəsilən qan * "nifas" qanıdır. Nifas halında olan qadına "nəfsa" deyilir.

---

** Sistani: ... yalan danışmaqla ittiham edilmirsə, sözü qəbul edilməlidir. Əks təqdirdə sözünün qəbul edilməsi işkallıdır. T.m, məs.469

*Sistani:...Amma ehtiyati vacibə əsasən qadın övrətinin daxilini yuduqdan sonra onunla cima edilməlidir. T.m, məs.473

** Sistani: Amma Ramazan ayının oruclarının qəzasını tutmalıdır. Həmçinin heyz olduğu üçün tuta bilmədiyi vaxtı müəyyən olan nəzir oruclarının qəzasını ehtiyati-vacibə əsasən tutmalıdır.

[1] Lənkərani. T.m, məs.476; Sistani. T.m, məs.482

* Sistani: ... bu şərtlə ki, doğuş qanı hesab olunsun...

2– Uşağın ilk üzvünün çölə gəlməsindən qabaq qadının gördüyü qan nifas deyildir.

3– Nifas qanı bir anlıqdan artıq gəlməyə bilər. Amma on gündən də artıq ola bilməz.

4– Haiz qadına haram olan işlər,** "nəfsa" qadına da haramdır.

5– Nifas halında olan qadına verilən təlaq batil və bu halda yaxınlıq etmək haramdır.

6– Əgər qadın nifas qanından pak olub batinində qan qalmasına ehtimal versə, bir miqdar pambığı övrətinə daxil edib bir az gözləməli, sonra çıxarıb baxmalıdır: əgər pakdırsa, öz ibadətləri üçün qüsul etməlidir.

***Əgər qadının nifas qanı on gündən keçsə***[7]

- 1-***Heyzdə adəti var*** ⇨ Adət günləri qədəri nifas, qalanını isə istihazə hesab etməlidir
- 2- ***Heyzdə adəti yoxdur*** ⇨ On günə qədər nifas, qalanı isə istihazə sayılır***

7– Ehtiyati-müstəhəbə görə adəti olan qadın adətindən sonrakı gündən, adəti olmayan isə doğuşun onuncu günündən on səkkizinci gününə qədər istihazədə deyilən işləri yerinə yetirməli, nifaslı qadına haram olan işləri isə tərk etməlidir. [1]

** Sistani: ehtiyati-vacibə əsasən "nəfsa" qadına da haramdır

***Sistani:.. və əgər adətini unudubsa, adət günlərinin miqdarını ehtimal verdiyindən çox götürməlidir.

[1] Lənkərani. T.m, məs.517; Sistani. T.m, məs.523

***Qadın əgər doğuşdan sonra bir ay, yaxud ondan da artıq müddətdə ardıcıl olaraq qan görərsə***[2]

- ***1-Heyzdə adəti olan qadının***
  - 1- adət günləri miqdarında gördüyü qan ⇨ нифас
  - 2-adət günlərindən sonrakı qan ⇨ on günə qədəri adət günlərində olsa belə istihazədir
  - 3- bu on gündən sonra gələn qan isə
    - 1- adət günlərinə düşərsə ⇨ onda heyz əlaməti olsa da, olmasa da, heyzdir
    - 2- adət günlərinə düşməzsə* ⇨ onda heyz əlamətləri olsa da, istihazə hesab etməlidir
- ***2- Heyzdə adəti olmayan** qadının***
  - 1- ilk on günü ⇨ nifasdı
  - 2- ikinci on günü ⇨ istihazədir
  - 3- ondan sonra gördüyü qan isə***
    - 1- heyz əlaməti olsa ⇨ щейзд
    - 2- heyz əlaməti olmasa ⇨ İstihazə hesab etməlidir

---

[1] Lənkərani. T.m, məs.519; Sistani. T.m, məs.525

* Sistani:.. adət günlərinə düşməzsə, (gözləməsi bir ay çəksə və bu müddət ərzində qan heyz nişanələrini daşısa belə) adət günlərini gözləməlidir. Amma əgər qadın vəqtiyyə adət sahibi olmasa, mümkün olduğu təqdirdə, heyzini onun nişanələri ilə təyin etməlidir. Əgər bu mümkün olmasa məsələn, nifasdan on gün sonra gördüyü qanların hamısı eyni şəkildə olarsa və bir, ya bir neçə ay eyni halda davam edərsə, hər ay öz qohumlarından bəzisinin heyz adətini özünə heyz qəbul etməlidir. Əgər bu mümkün deyilsə, özünə münasib bildiyi bir ədədi heyz olaraq seçməlidir. Bu məsələlərin geniş açıqlanması heyz bəhsində izah olunmuşdur.

** Sistani:.. heyzdə ədədiyyə adəti olmayan qadın... T.m, məs.526

*** Sistani:... ondan sonra gördüyü qan isə heyz olması mümkün olduğu kimi, istihazə də ola bilər. Heyzi təyin etmək üçün əvvəlki məsələdə açıqlanan göstərişə əsasən əməl edilməlidir. T.m, məs.526

# İSTİHAZƏ

Qadından xaric olan qanlardan biri də istihazə qanıdır. İstihazə qanı görən müddətdə qadına "***müstəhazə***" deyilr.

***İstihazə qanı əksər hallarda aşağıdakı əlamətlərlə olur:***

- Sarı rəngdə
- Soyuq
- Təzyiqsiz
- Yandırıcı olmadan
- Qəliz deyil

1– Amma bəzi vaxtlar qara, qırmızı, isti və qəliz olması, təzyiqlə və yandırıcı halda çölə gəlməsi mümkündür.

***İstihazə üç növdür: qəlilə (az), mütəvəssitə (orta), kəsirə (çox)***

***İstihazənin növləri***[2]

1-***Qəlilə istihazədə***[*] qan qadının övrətinin daxilinə qoyduğu pambığın bir tərəfindən keçir, amma o biri tərəfinə çıxmır.

2-***Mütəvəssitə istihazədə***[**] qan qadının övrətinə qoyduğu pambığa hopub o biri tərəfinə çıxır. Amma qadınların, adətən, qanaxmanın qarşısını almaq üçün qoyduqları dəsmala keçmir.

3-***Kəsirə istihazədə***[***] qan pambıqdan keçib dəsmala çatır.

---

[1] Lənkərani. T.m, məs.394; Sistani. T.m, məs.399

[*] Sistani: Qəlilə istihazədə qan yalnız qadının istifadə etdiyi pambığın üzünə bulaşır, amma ona hopmur.

[**] Sistani: Mütəvəssitə istihazədə qan pambığın bir kənarına belə olsa hopur. lakin qadınların adətən qanaxmanın qarşısını almaq üçün qoyduqları dəsmala keçmir.

[***] Sistani: Kəsirə istihazədə qan pambığı bürüyərək dəsmala da keçir.

### *İstihazənin hökmləri*

***Qəlilə istihazədə hər namaz üçün əməllər***[1]

- Dəstəmaz almaq
- Övrətin zahirinin qan dəyən yerlərini suya çəkmək
- Ehtiyati-vacibə* görə pambığı dəyişmək və ya suya çəkmək

### *Mütəvəssitə istihazədə hər namaz üçün əməllər*[1]**

***Mütəvəssitə istihazə qanı***

1-***namazdan əvvəl gələrsə*** ⇨ Qüsl edilməlidir

2- ***namaz əsnasında gələrsə*** ⇨ Qüsl edilməlidir

3- ***üçün sübh namazından qabaq qüsl etsə,*** sonrakı günün sübhünə qədər hər namaz üçün yalnız qəlilə istihazənin işlərini yerinə yetirməlidir. Amma qəsdən, yaxud unutqanlıq üzündən qüsl etməsə, zöhr və əsr namazları üçün qüsl etməlidir. Əgər onun üçün də qüsl etməsə, məğrib və işa namazlarından qabaq qüsl etməlidir.

---

* Sistani: ... ehtiyati-müstəhəbə əsasən...

1 Lənkərani. T.m, məs.396

** Sistani: Mütəvəssitə istihazədə ehtiyati-lazıma əsasən qadın öz gündəlik namazları üçün bir qüsl etməli və həmçinin əvvəlki məsələdə deyildiyi kimi, qəlilə istihazənin vəzifəsini yerinə yetirməlidir. T.m, məs.401

### *Kəsirə istihazədə hər namaz üçün əməllər*[1]

| | |
|---|---|
| ***Kəsirə istihazə*** | 1-Sübh namazı üçün bir qüsl, zöhr və əsr namazları üçün başqa bir qüsl, məğrib və işa namazları üçün isə daha bir qüsl edilməlidir. Zöhr ilə əsr namazı və məğrib ilə işa namazları arasında fasilə salınmamalıdır. Əgər fasilə salınsa, hər bir namaz üçün ayrılıqda qüsl verilməlidir.<br><br>2-Qüsldən əlavə* hər namazda qəlilə isti-hazənin də əməlləri yerinə yetirilməlidir. |

1– Əgər istihazəli qadın ona vacib olan əməllərdən hər hansı birini tərk etsə, namazı batil olar.

2– Əgər bir qadın istihazəsinin hansı növdən olduğunu bilməsə, namaz qılmaq istədiyi vaxt** bir miqdar pambığı öz övrətinin daxilinə qoyub bir az gözlədikdən sonra çıxardıb istihazənin hansı növdən olduğunu təyin etməli, sonra həmin növün göstərişlərinə əsasən əməl etməlidir. Amma əgər namaz qıldığı vaxtda istihazəsinin dəyişilməyəcəyini bilsə, vaxt daxil olmamışdan əvvəl də özünü yoxlaya bilər.

3– Qəlilə istihazəsi olan qadın dəstəmazdan sonra, kəsirə* və mütəvəssitə istihazəsi olan qadın isə qüsl və dəstəmazdan sonra dərhal namaza başlamalıdır. Amma azanı və iqaməni deməyin, namazdan əvvəl olan duaları oxumağın eybi yoxdur. Namazda da qunut və s. kimi müstəhəb işləri yerinə yetirə bilər.[2]

---

[1] Lənkərani. T.m, məs.397; Sistani. T.m, məs.402

* Sistani: ... ehtiyati-vacibə əsasən qadın hər namaz üçün pambığı və ya dəsmalı dəyişməli,yaxud suya çəkməlidir. Bütün bunlar qanın ardıcıl olaraq pambıqdan dəsmala yetişdiyi haldadır. Amma qanın pambıqdan dəsmala çatması fasilə ilə olsa,qadın o fasilədə iki namaz, ya da daha artıq namaz qıla bilərsə, ehtiyati-lazıma əsasən nə vaxt qan pambıqdan dəsmala yetişsə, pambıq və dəsmalı dəyişməli və ya suya çəkməli və qüsl etməlidir. Hər halda kəsirə istihazəsinin qüsulunun dəstəmaz əvəzinə də yetərli olduğu daha mötəbər nəzərdir.

** Sistani:..ehtiyata əsasən namaz üçün özünü yoxlamalıdır. Məsələn...

* Sistani:..kəsirə istihazəsi olan qadın qüsuldan sonra və ...

[2] Lənkərani. T.m, məs.414; Sistani. T.m, məs.419

4 – Əgər müstəhazə qadın namazın vaxtının sona çatmasından əvvəl tamamilə paklanacağını, yaxud namaz qılacağı müddətdə qanın dayanacağını bilsə, bu halda** gözləməli, namazını pak olduğu vaxtda qılmalıdır.[1]
5– Əgər istihazəsi olan qadın özünə vacib olan qüsulları yerinə yetirsə, məscidə getmək, orada dayanmaq, vacibi səcdəsi olan Surələri oxumaq, əri ilə yaxınlıq etmək və s. kimi işlər hətta namaz üçün vacib olan sair əməlləri (dəstəmaz almaq, pambığı dəyişmək, dəsmal qoymaq) yerinə yetirməmiş olsa da ona halal olur.[2]

## ***Qadın məsələləri barəsində bir neçə şəri suala cavab:***

***Sual:*** Mənim anam şərif Nəbəvi (Peyğəmbər) nəslindəndir. Mən də seyyidə sayılırammı və aylıq adətimi (aybaşını) 60 yaşına qədər heyz hesab edə bilərəmmi?
***Cavab:*** Atası Haşimi tayfasından olmayan qadın hərçənd anası seyyidlərdən olsa belə, 50 yaşından sonra qan görsə, bu qan istihazə hökmündədir.[3]
***Sual:*** Nəzir etdiyi üçün oruc tutan, bu halda heyz görən qadının vəzifəsi nədir?
***Cavab:*** Oruc tutduğu günün bir hissəsində belə heyz görsə, orucu batil olar. Pak olandan sonra da həmin günün orucunun qəzasını tutmalıdır.[4]
***Sual:*** Oruc tutmaq üçün dava-dərman qəbul etməklə aylıq adətin qarşısını almağın hökmü nədir?
***Cavab:*** Heç bir eybi yoxdur.[5]
***Sual:*** Qadının hamiləlik dövründə zəif qanaxma baş versə, lakin uşaq doğulmasa, ona qüsl vacibdir, ya yox? Onun nə etməsi vacibdir?
***Cavab:*** Qadının hamiləlik dövründə gördüyü qanda heyzin əlamətləri, yaxud şərtləri olsa, heyzdir, olmasa istihazədir.Və əgər onun istihazəsi kəsirə, yaxud mütəvəssitə olsa, qüsl etməsi vacibdir.[6]
***Sual:*** Heyz, yaxud nifas halında olan qadınlar İmamların (ə) övladlarının ziyarətgahlarına daxil ola bilərlərmi?

** Sistani:...bu halda ehtiyati-lazıma əsasən gözləməli...
[1] Lənkərani. T.m, məs.411; Sistani. T.m, məs.416
[2] Lənkərani. T.m, məs.429; Sistani. T.m, məs.434
[3] Xamenei. "Əcvibətül-istiftaat", sual 228
[4] Xamenei. "Əcvibətül-istiftaat", sual 229
[5] Xamenei. "Əcvibətül-istiftaat", sual 231
[6] Xamenei. "Əcvibətül-istiftaat", sual 232

***Cavab:*** Əgər bu iş hörmətsizlik sayılmazsa, olar.[1]
***Sual:*** Qadınlar yaisəlik dövründən sonra qan görsələr, bu qanın hökmü nədir? Bu halda o qadınların şəri vəzifələri nədir?
***Cavab:*** İstihazə hökmü vardır.[2]

[1] Xamenei. "Əcvibətül-istiftaat", sual 234
[2] Xamenei. "Əcvibətül-istiftaat", sual 236

# TƏYƏMMÜM (1)

***Təyəmmüm iki növdür***
1-***Dəstəmaz əvəzinə***
2-***Qüsl əvəzinə***

***Necə təyəmmüm edək:***

***Təyəmmümdə dörd iş vacibdir***[1]

1- ***Niyyət*** – Təyəmmümün dəstəmaz və ya qüsl əvəzinə olmasını müəyyən etməkdir.[*][2]
2- ***İki əlin içini təyəmmüm düzgün olan şeyə vurmaq.***[**]
3- ***İki əl birlikdə alının hər yerinə həmçinin onun iki tərəfinə***[***]***; tük bitən yerdən qaşlara qədər və burunun üst tərəfinə çəkilməlidir.*** Ehtiyati-vacibə[****] görə, əllər qaşların da üstünə çəkilməlidir.
4- ***Sol əlin içi sağ əlin üstünün hər yerinə və sağ əlin içi sol əlin üstünə eyni qayda ilə çəkilməlidir.***

***Yeddi halda dəstəmaz və qüsl əvəzinə təyəmmüm etmək lazımdır:***

1- Dəstəmaz və ya qüsl etmək üçün lazım olan suyu tapmaq mümkün olmazsa.
2- Əgər bir kəs qocalıq səbəbilə, yaxud oğrudan, yırtıcı heyvandan və s. kimi şeylərdən qorxmaq və yaxud da suyu quyudan çıxartmaq üçün lazımi avadanlığın olmaması səbəbilə su əldə edə bilməsə, təyəmmüm etməlidir.[3]

---

[1] Lənkərani. T.m, məs.699; Sistani. T.m, məs.708
[*] Sistani:Niyyət edərkən təyəmmümün dəstəmaz və ya qüsl əvəzinə olduğunu müəyyən etmək lazım deyil. Amma iki təyəmmüm yerinə yetirməli olsa, onların hər birini müəyyən etməlidir. T.m, məs.713
[2] Lənkərani. T.m, məs.704
[**] Sistani: İki əlin içini təyəmmümün düzgün olduğu şeyə vurmaq və ya qoymaq. Ehtiyati-vacibə əsasən, hər iki əl eyni vaxtda vurulmalı və ya qoyulmalıdır.
[***] Sistani: Ehtiyati-lazıma əsasən;...
[****] Sistani: Ehtiyati-müstəhəbə əsasən;...
[3] Lənkərani. T.m, məs.663; Sistani. T.m, məs.672

3- Əgər bir kəs suyun işlədilməsinin səhhətinə zərər verəcəyindən, yaxud onu istifadə edəcəyi halda hər hansı bir xəstəlik və eybin yaranacağından, yaxud xəstəliyinin uzanacağından, şiddətlənəcəyindən və ya çətinliklə müalicə olunacağından qorxsa, təyəmmüm etməlidir. Amma əgər isti suyun zərəri olmasa, isti su ilə dəstəmaz və ya qüsl etməlidir.

4- Əgər insan suyu dəstəmaz və qüsl üçün istifadə edəcəyi halda özü, əyalı, övladları, dostu və ona aid olan şəxslərin (nökər və ya külfət) susuzluqdan öləcəklərindən, yaxud da dözülməsi məşəqqətli olan qədər susayacaqlarından qorxsa, dəstəmaz və qüsl əvəzinə təyəmmüm etməlidir. Özünün, yaxud başqasının malı olan heyvanın susuzluqdan tələf olmasından qorxduğu halda da suyu onlara verib təyəmmüm almalıdır. Həmçinin, əgər canının hifzi vacib olan bir kəs çox susuz olsa və suyu ona verməyəcəyi halda tələf olacaqsa, suyu ona verib təyəmmüm etməlidir.

5- Bədəni, yaxud paltarı nəcis olan və yalnız qüsl və dəstəmaza çatan qədər suyu olan bir şəxs, dəstəmaz və qüsl aldıqda, bədənini və yaxud paltarını suya çəkmək üçün suyu qalmayacaqsa, bədənini və paltarını suya çəkib təyəmmümlə namaz qılmalıdır. Amma əgər təyəmmüm etmək üçün bir şey tapmasa, o suyu dəstəmaz və qüsl üçün istifadə edib, nəcis bədən və ya paltarla namaz qılmalıdır.

6- Əgər istifadəsi haram olan su və ya qabdan başqa bir suyu, yaxud qabı olmazsa (məsələn: suyu, yaxud qabı qəsbi olsa və ondan da başqası olmasa), dəstəmaz və ya qüsl yerinə təyəmmüm etməlidir.

7- Əgər vaxt çox az olsa və dəstəmaz, yaxud qüsl alacağı təqdirdə namazın hamısı, yaxud bir qədəri namazın vaxtından sonra qılınacaqsa (qəza olacaqsa) təyəmmüm etməlidir.[1]

---

[1] Lənkərani. T.m, məs.677; Sistani. T.m, məs.686

# TƏYƏMMÜM (2)

## *Su tapmaq üçün axtarış*

**Su tapmaq üçün axtarış**[1]

- 1-***Abadlıqda*** ⇨ Su tapmaqdan naümid olana qədər
- 2-***Çöldə, biyabanda***
  - 1-Dərə-təpə və yaxud ağaclıq və s. kimi keçilməsi çətin olan yerlərdə ⇨ Hər dörd tərəfə, qədim kamanlardan atılan bir ox uçuşu• məsafəsində axtarış aparılmalıdır*
  - 2-Dərə-təpə olmayan və yaxud keçilməsi çətin olmayan yerlərdə ⇨ İki ox uçuşu məsafəsində axtarış aparılmalıdır

## *Bir neçə məsələ:*

1– İnsanın su olmadığına əmin olduğu tərəfdə axtarış aparması lazım deyil.[1]

2– Suyun insana zərəri olmasına yəqinliyin olması şərt deyil, hətta əgər zərəri olduğuna ehtimal da versə və onun ehtimalı, camaatın nəzərində əsaslı ehtimal olsa** və bu ehtimaldan onun üçün qorxu hasil olsa, təyəmmüm etməlidir.

3– Göz ağrısı xəstəliyinə düçar olan və su işlədilməsi zərər olan şəxs təyəmmüm etməlidir.

4– Əgər qəsdən namazı çox təxirə salsa və qüsl, yaxud dəstəmaz üçün vaxt olmasa, günah etmişdir, amma onun təyəmmümlə qıldığı namaz düzgündür. Ehtiyati-müstəhəb budur ki, o namazın qəzasını yenidən qılsın.

5– Dəstəmaz və ya qüsl alacağı təqdirdə namaz üçün vaxt qalıb-qalmayacağında şəkk edən bir kəs təyəmmüm etməlidir.

6– Əgər insanın dəstəmaz və ya qüsl alıb müstəhəb əməlləri (iqamə, qunut və s.) yerinə yetirmədən namaz qılmağa vaxtı varsa, qüsl edib, yaxud dəstəmaz alıb namazı onun müstəhəb əməllərini yerinə yetirmədən qılmalıdır. Hətta əgər Surəni oxumaq üçün də vaxt olmasa, qüsl edib dəstəmaz almalı, namazı Surəsiz qılmalıdır.

---

• Bir ox uçuşu təxminən iki yüz addım qədərdir. (Məclisi "mən la yəhzuruhul fəqih" kitabının şərhi)

* Sistani:Ehtiyati-vacibə əsasən...

[1] Lənkərani. T.m, məs.649; Sistani. T.m, məs.657

** Sistanidə məsələnin ardı zikr olunmayıb.

## *Təyəmmümün səhih olduğu şeylər*

**_Təyəmmüm etməyin səhih olduğu şeylər_**

- 1-Torpaq[4]
- 2- Qum[4]
- 3- Kəsək[4]
- 4- Daş[4] (əgər pak olsa)
  - kəc daş
  - əhəng daş
  - qara mərmər və s. növlərdən olan daşlar
- 5- Bişmiş palçıq (kərpic, kuzə və s.)
- 6- Əgər torpaq, qum, kəsək və daş tapılmasa, palaz-paltar, xalça və s. kimi şeylərin üstündə olan tozlara təyəmmüm edilməlidir. Əgər toz da tapılmasa, palçığa təyəmmüm edilməlidir.[*][5]

## *Bir neçə məsələ:*

1– Dəstəmaz və qüsl əvəzinə olan təyəmmüm arasında heç bir fərq yoxdur.Təkcə fərqləri niyyətdədir.[2]

2– Dəstəmazı batil edən şeylər dəstəmaz əvəzinə olan təyəmmümü də batil edir; habelə, qüslü batil edən şeylər, qüsl əvəzinə olan təyəmmümü də batil edir.

3– Əgər bir kəs su olmaması, yaxud başqa səbəblərə görə təyəmmüm etsə, üzrü aradan qaldırıldıqdan sonra təyəmmümü batil olur.

4– Qüsl edə bilməyən bir şəxs qüsl edilməsi vacib olan bir iş görmək istəsə, qüsl əvəzinə təyəmmüm etməlidir. Əgər dəstəmaz ala bilməsə və dəstəmazın vacib olduğu hər hansı işi görmək istəsə, dəstəmaz əvəzinə təyəmmüm almalıdır.

---

[*] Sistani: Əgər torpaq, qum, kəsək və daş tapılmasa, palçığa təyəmmüm edilməlidir. Əgər palçıq da tapılmasa, palaz-paltar, xalça və s. kimi şeylərin üstündə olan tozlara təyəmmüm edilməlidir. T.m, məs.694

[1] Lənkərani. T.m, məs.685

[2] Lənkərani. T.m, məs.700; Sistani. T.m, məs.709

5– Əgər torpağa və quma təyəmmümün batil olduğu şeylər (saman kimi) qarışsa, ona təyəmmüm etmək olmaz. Amma həmin qarışıq çox az olub torpaqda və ya qumda aradan getmiş hesab olunsa, onlara təyəmmüm etmək düzgündür.
6– Əllərin üstünün hamısına məsh etməsinə əmin olmaq üçün biləkdən bir az yuxarı da məsh etməlidir, amma barmaqların arasına məsh etmək lazım deyil.
7– Alının və əllərin üstünü, ehtiyati-vacibə görə, yuxarıdan-aşağı məsh etmək, onun işlərini bir-birinin ardınca (fasiləsiz) yerinə yetirmək lazımdır. Əgər onların arasında çox fasilə versə və "təyəmmüm alır" deyilməsə, təyəmmümü batildir.
8–İnsan təyəmmüm üçün əlindəki üzüyü çıxartmalı, alnında, əllərinin üstündə, içində maneə olsa (məs:bir şey yapışmışsa), aradan qaldırmalıdır.
9– Əgər alında, əllərin üstündə tük olsa, eybi yoxdur. Amma başın tükü alına tökülmüş olsa, onları dala çəkmək lazımdır.[1]

[1] Lənkərani. T.m, məs.708; Sistani. T.m, məs.717

# QADINLARI MARAQLANDIRAN MÜXTƏLİF HÖHMLƏR

***Məsələ 496.*** Qadın naməhrəm kişilərin yanında harama düşmək qorxusu olmadığı halda, həmçinin onları haram (ehtiraslandıran, günaha sürükləyən) baxışlara sövq etmədiyi, yaxud bu və ya digər şəkildə əxlaqi fəsadlara səbəb olmadığı halda üzünü və əllərini örtməyə bilər. Əks təqdirdə isə hətta məhrəmlərinin belə yanında sözügedən üzvlərini də örtməlidir.

***Məsələ 497.*** Qadın naməhrəm kişilərin yanında ayaqlarının üstünü açıq qoya bilməz. Lakin namazda ayaqlarının həm üst, həm də alt tərəflərini örtməyə bilər.

***Məsələ 498.*** Kişiləri ehtiraslandırmaq niyyəti olmadan və harama düşməyəcəyinə əmin olması şərtilə qadın gözünə sürmə çəkə, barmaqlarına üzük taxa bilər. Əks təqdirdə isə hətta sözügedən bəzəklərini və zinət əşyalarını hətta öz məhrəmlərindən belə gizlətməlidirlər.

***Məsələ 499.*** Naməhrəm kişilərin məftun olaraq günaha sürüklənməsinə səbəb olmadığı və məhz onları təhrik etmək niyyəti daşımadığı halda qadının bu və ya digər səbəblə evdən ətirlənib çıxmasına şəriət tərəfindən izin verilir.

***Məsələ 500.*** Qadın harama (günaha, şərə) düşməyəcəyinə əmin olduğu halda naməhrəm kişinin idarə etdiyi avtomobilə (o cümlədən taksiyə) əyləşə bilər.

***Məsələ 501.*** Qadın orqazm olmaqvə boşalmaq (eyakulyasiya) niyyəti ilə cinsiyyət orqanı ilə oynaya bilməz. Masturbasiya nəticəsində orqazma çataraq boşaldığı (mayenin çölə axdığı) halda isə qüsl almalıdır və bu qüsl dəstəmaz üçün də kifayət edir.

***Məsələ 502.*** Sonsuzluq (repreduktiv fəaliyyətin zəifliyi) problemi ilə üzləşən qadın müalicə məqsədilə zərurət yarandığı halda həkim-ginekoloqun qarşısında cinsiyyət orqanını aça bilər. Eləcə də sonsuzluğun ona bu hökmü (cinsiyyət orqanını həyat yoldaşından başqasına göstərməyin haramlığını) qüvvədən düşürəcək ciddi problemlərlə qarşı-qarşıya qoyduğu hallarda (məsələn ailə həyatının alt-üst olması təhlükəsi tərc.) buna izin verilir.

***Məsələ 503.*** Südəmər körpəlrin ana südü ilə qidalandırılması dinimizdə təqdirəlayiq bir hal hesab edilir. Hədislərdən birində oxuyuruq: “Körpə üçün ana südündən daha faydalı bir qida yoxdur”.

Daha yaxşı olar ki, körpə 21 ay müddətində yalnız ana südü ilə qidalansın. 21 ayı tamam olmazdan öncə süddən kəsilməsi məsləhət görülmür. Həmçinin, südəmərlik dövrünün iki ildən (24 aydan) artıq uzadılması da məsləhət görülmür və daha yaxşı olar ki, valideynlər 2 yaşdan gec olmayaraq onu süddən ayırmaq xüsusunda razılığa gəlsinlər.

Məsələ 504. İntim həyatla bağlı olmayan ev işlərini görmək, o cümlədən yemək hazırlamaq, libasları yumaq və s. qadın üçün müstəhəb (təqdirəlayiq) hesab edilir və vacib sayılmır (əri bunu ondan tələb edə bilməz).

***Məsələ 505.*** Şəhvani həzz və harama düşmək qorxusu olmadan naməhrəm qadının söhbətinə qulaq asa bilər və eləcə də qadının bu şərtlər çərçivəsində səsini naməhrəmlərin eşidəcəyi qədər ucadan danışa bilər. Qadının həmsöhbəti olan əks cinsin nümayəndələrində ehtiras hisslərini oyada biləcək şəkildə işvə və incə səslə danışmasına isə hətta öz məhrəmlərinin yanında belə icazə verilmir.

***Məsələ 506.*** Qadın səhhəti ilə bağlı bu və ya digər bir problemlə qarşılaşarsa və həmin xəstəliyi müalicə edə biləcək ən peşəkar həkim kişi mütəxəssis olarsa, həkim müalicə prosedurunun tələb etdiyi çərçivədə onun bədəninə baxa və toxuna bilər. Lakin bunlardan biri (baxmaq və ya toxunmaq) kifayət edərsə, digərinə şəriət tərəfindən icazə verilmir.

***Məsələ 507.*** Bəzi İslamşünas alimlərə görə İslam dini məhz həm qadın, həm kişi, həm də bütövlükdə ailənin mənafeyini təmin etmək üçün bütün növ cinsi həzzalmaları ailə həyatı çərçivəsində qurulan cinsi partnyorluq münasibətləri ilə məhdudlaşdırmaq məqsədilə qadının naməhrəm kişilərin yanında hicablı olmasını vacib etmişdir.

***Məsələ 508.*** Dünya şöhrətli kino rejissoru və prodüseri Alfred Hiçkok deyirdi: “Şərq (burada: müsəlman) qadını zatən olduqca cazibədardır və bu cazibədarlıq onu daha da güclü qılır. Lakin onun qərbli həmcinslərinə bənzəmək üçün göstərdiyi əzimli səylər nəticəsində hicabdan get-gedə uzaqlaşmış və nəticədə hicabını itirdikcə də cinsi cazibədarlığı, möhtəşəmliyi də azalmışdır”.

***Məsələ 509.*** Məşhur araşdırmaçı Vil Durant qadının cinsi davranışları ilə bağlı görüşlərini qələmə alarkən yazır: “Qadın əvvəldən bilirdi ki, onun özünü ucuz tutması alçaldılmasına və xor görülməsinə (əks cinsin nümayəndələri tərəfindən), yəni dəyərsizləşməsinə gətirib çıxaracaqdır. O, bunu öz qızlarına

da öyrədirdi. Beləliklə, o öz daxili meyli ilə iffət, həya və örtünmək vasitəsilə kişilərin nəzərində dəyərini qaldırdı və mövqeyini gücləndirdi".

## Sual-cavablar:

***Məsələ 510.*** Qadının şəhvət hissi ilə, cinsi həzz almaq məqsədilə başqa bir qadını qucaqlaması, öpməsi və onunla oynaşması (mazaqlaşması) ilə bağlı şəriətin hökmü nədir? Bəs bir qədər də irəli gedərək daha anormal davranışlara yol verilməsinə necə?

***Cavab:*** Deyilən hərəkətlərin hamısı haramlıq dərəcəsinə (intim əxlaqa zidd olma səviyyəsindən asılı olaraq günahının böyüklüyünə) görə fərqlənsələr də, şəriət tərəfindən yasaq edilmişdir.

***Məsələ 511.*** Çox zaman qadınlar onları maraqlandıran şəriət hökmləri ilə bağlı dinşünas alimlərə bəzi suallar ünvanlamalı olurlar. Bəzi şəriət məsələlərinin intim həyat kimi haqqında danışılması tabu (qeyri-etik) hesab edilən mövzuları əhatə etdiyi nəzərə alınmaqla onların suallarını həmin alimlərə bilavasitə və açıq şəkildə ünvanlamasına icazə verilirmi? Bəs müraciət edilən şəxslər həmin suallara eynilə açıq şəkildə cavab verə bilərlərmi?

***Cavab:*** Bəli, hər iki tərəfə şəriət hökmlərini öyrənmək və öyrətmək məqsədilə açıq şəkildə danışmağa izin verilir. Lakin onların hər ikisi də öz növbəsində düzgün niyyətdə olmalı, əxlaq qaydalarına riayət etməli və açıq şəkildə müzakirə olunması qəbahətli hesab edilən xüsusları gərəksiz yerə qabartmaqdan çəkinməlidirlər.

***Məsələ 512.*** Qadın cinsiyyət orqanı ilə oynadıqda (masturbasiya və ya mazaqlaşma nəticəsində) vaginadan yapışqan halında olan maye ifraz olunur. Bu işə davam etdikdə isə qadın "orqazm" adlanan cinsi həzzin zirvəsinə çata və boşala bilər. Beləliklə, qüsl (cənabət qüslü) mayenin ifraz olduğu ilk ehtiraslanmadan sonra vacib olur, yoxsa yalnız orqazma çataraq boşaldıqdan (eyakulyasiyadan) sonra? Bəs bu qüsl dəstəmaz üçün də kifayət edirmi?

***Cavab:*** Qadın orqazma çatmayınca qüsl alması vacib hesab olunmur. Orqazma çataraq boşaldıqdan sonra isə cənabətdən paklanmalı olduğu hallarda qüsl alması vacib olur və bu qüsl dəstəmaz üçün də kifayət edir.

***Məsələ 513.*** Həcc mərasiminin icrası əsnasında bəzi qadınlar aybaşı (menstruasiya) adətini gecikdirmək məqsədilə müəyyən həblər qəbul edirlər.

Lakin adət günləri çatdıqda onlardan yenə də arada bir qan ifraz olunur. Həmin qana heyz hökmləri şamil olunurmu?

***Cavab:*** Əgər qanaxma arada bir az miqdarda baş verərsə və daxildə (ifraz olunmadan) da olsa üç gündən az davam edərsə, heyz hökmləri şamil olunmur.

***Məsələ 514.*** Hicablı müsəlman qadınların bir qismi adətən, boğazlarını örtdükləri halda çənələrini və çənəaltı nahiyəsini açıq qoyurlar. Şəriətdə buna icazə verilirmi? Ümumiyyətlə, üzün örtülməsi vacib olmayan hissələri hansılardır? Qulaqlar da buna daxildirmi?

***Cavab:*** Qulaqlar üz nahiyəsi hesab olunmur və onları ortmək vacibdir. Normal baş örtüklərindən çöldə qalan çənə və onun alt nahiyəsi isə üzdən hesab olunur.

***Məsələ 515.*** Evlənmək ümidini itirən yaşlı naməhrəm qadınlarla əllə görüşmək olarmı? Şəriətdə bu xüsusda nəzərdə tutulan təqribi yaşı da açıqlamağınızı xahiş edirik.

***Cavab:*** Zərurət halları istisna olmaqla, naməhrəm qadının bədəninə heç bir vəchlə toxunmaq olmaz. Şəriətdə sözügedən məsələ ilə bağlı olaraq təqribi bir yaş həddi müəyyən edilməmişdir və bu dövr müxtəlif qadınlarda fərqli yaşlardan başlaya bilər. Sözügedən yaşlılıq meyarı isə ayədə də öz əksini tapdığı kimi qadının yaşının çox olması (ömrünün qocalıq, ahıllıq çağında olması) nəticəsində evlənməkdən ümidini üzməsidir.

***Məsələ 516.*** Bu və ya digər bir ölkədə üzü niqabla örtmək insanlarda təəccüb doğurarsa və addımbaşı səbəbi soruşularsa, "şöhrət libası" (burada: diqqəti cəlb edən, məsələn insanın barmaqla göstərilməsinə səbəb olan geyim) hesab olunaraq niqab bağlamaqdan imtina etmək vacibdirmi?

***Cavab:*** Göstərilən halda vacib deyil. Lakin yaşadığı ölkənin əhalisinin əksəriyyəti tərəfindən normal qəbul edilməyərək, bayağı, xoşagəlməz hesab edildiyi halda niqab həmin ölkədə "şöhrət libası" sayılır və onunla üzü bağlamaq olmaz.

***Məsələ 517.*** Hicablı qadınlar naməhrəm təlimçilərin rəhbərlik etdiyi sürücülük kurslarında günaha yol vermək üçün zəmin olmadığı halda fərdi qaydada sürücülük təlimi ala bilərlərmi?

***Cavab:*** Fəsaddan (günahdan) uzaq olduqları halda icazə verilir.

***Məsələ 518.*** Qadın gözəllik salonları qadın işçi axtarırlar. İnanclı müsəlman qadını həmin salonlarda işləyərək naməhrəmlərin qarşısında gözəl görünmək istəyən qeyri-müsəlman və hicabsız müsəlman qadınlarına xidmət göstərə bilərmi?

***Cavab:*** Bu iş onların şəriətin yasaqlarının (günahın) rəvac tapmasına, yayılmasına şərik olması sayılarsa, həmin salonlarda işləməməlidirlər. Lakin bu ehtimalın özünü doğrultması həqiqətdən kifayət qədər uzaq görünür.

***Məsələ 519.*** Üzünü örtməyən (niqab və s. ilə) qadın üzündəki tükləri və qaşlarını ala, sadə təbii pudralarla makyaj edə bilərmi?

***Cavab:*** Üzdəki tüklərin və qaşların alınması günaha düşmək təhlükəsinin mövcud olmaması və haram baxışlara sövq etmək niyyəti daşımaması şərti ilə üzün açıq qalmasına əngəl hesab olunmur. Makyaj edildiyi halda isə üz örtülməlidir.

***Məsələ 520.*** Elçi tapmaq niyyəti ilə qadın məclislərində qızlar saçını tamamilə və ya bir hissəsini boyayaraq iştirak edə bilərmi?

***Cavab:*** Bu və ya digər bir eybi gizlətmək, yaxud yaşını olduğundan az göstərmək kimi fırıldaqçılıq hallarına yol vermədən sadəcə bəzənmək, gözəl görünmək niyyəti daşıyarsa, eybi yoxdur.

***Məsələ 521.*** Qadınlar süni saçlardan (pariklərdən) istifadə edərkən təbii saçlarını gizlətmiş olurlar. Bəs onlar həm örtünmək, həm də gözəl görünmək məqsədilə özlərini fərqli imicdə göstərə bilərlərmi?

***Cavab:*** Süni saçlardan istifadə etmək olar, lakin süni saç naməhrəm kişilərin yanında örtlülməsi vacib olan zinətlərdəndir.

***Məsələ 522.*** Gənc qadınlar ayaqlarının baldır hissəsini gözəl göstərən dəri rəngli neylon corablar geyinə bilərmi?

***Cavab:*** Geyinə bilərlər, lakin həmin corablar geyimdə zinət hesab olunduğu halda naməhrəmlərin yanında onları gizlətməlidirlər.

***Məsələ 523.*** Ayaqların formasını göstərən corabları geyinmək olarmı?

***Cavab:*** Geyinmək olar.

***Məsələ 524.*** Bu və ya digər tibb müəssisəsində çalışan müsəlman tibb bacısı peşə fəaliyyəti çərçivəsində müsəlman və ya qeyri-müsəlman işilərin bədəninə toxunmalı olur. İş tapmaq şansı az olduğundan bu işdən ayrılması onu ciddi

çətinliklərl üzləşdirəcəyi halda işinə davam edə bilərmi? Digər tərəfdən, bu xüsusda müsəlman kişi ilə müsəlman olmayanın bədəninə toxunmaq arasında bir fərq qoyulurmu?

***Cavab:*** Müsəlman qadına müsəlman olub-olmamasından asılı olmayaraq naməhrəm kişinin bədəninə toxunmağa icazə verilmir. Yalnız haram hökmünü qüvvədən düşürən zərurət halları istisna təşkil edir.

***Məsələ 525.*** Müsəlman qadın yerə toxunduqda diqqəti cəlb edən səslər çıxaran hündürdaban ayaqqabı geyinə bilərmi?

***Cavab:*** Naməhrəm kişilərin diqqətini özünə cəlb etmək niyyəti daşıdığı, yaxud bir növ əxlaqi fəsada səbəb olduğu halda geyinə bilməz.

***Məsələ 526.*** Qadının gözəl görünmək məqsədilə üzük, qolbaq və boyunbağı kimi zinət əşyalarından istifadə etməsi halaldır, yoxsa haram?

***Cavab:*** Hala hesab olunur, lakin boyunbağını mütləq naməhrəmlərin yanında gizlətmək lazımdır. Üzük və qolbaqlar isə harama düşmək təhlükəsi olmadığı və haram baxışları cəlb etmək məqsədi daşımadığı hallarda istisna təşkil edir.

***Məsələ 527.*** Qərb ölkələrində müxtəlif rəngli kontakt linzalarının istifadəsi illərdir ki, dəbdədir. Müsəlman qadın estetik məqsədlərlə həmin linzalardan istifadə edərək naməhrəm kişilərin qarşısına çıxa bilərmi?

***Cavab***: Zinət hesab olunduğu hallarda icazə verilmir.

***Məsələ 528.*** Qadın yumurta hüceyrəsi donorluğuna, yumurta hüceyrələrinin alqı-satqısına şəriətin münasibəti necədir?

***Cavab:*** İcazə verilir.

***Məsələ 529.*** Bəzi qadınlar müəyyən xəstəliklərlə əlaqədar olaraq saç tökülməsi problemi ilə qarşılaşırlar. Saç tökülməsinin onlar üçün ciddi problemlər doğurduğu hallarda müalicə məqsədilə, yaxud sadəcə estetik məqsədlərlə saçlarını kişi həkim-kosmetoloqa göstərə bilərlərmi?

***Cavab:*** Yalnız dözülməz dərəcədə ciddi bir problem yarandıqda icazə verilir.

***Məsələ 530.*** Müsəlman qızlar qərb ölkələrində fəaliyyət göstərən və tələbə qız və oğlanların qaynayıb-qarışdığı, səmimi ünsiyyətdə olduğu ali təhsil müəssisələrində təhsil ala bilərmi?

***Cavab:*** İmanını qoruya biləcəyinə, dini vəzifələrini yerinə yetirə biləcəyinə, o cümlədən hicab geyinə biləcəyinə və haram baxış və toxunuşlardan qoruna

biləcəyinə, habelə həmin “səmimi münasibətlər” və haqq yoldan sapma mühitinin təsiri altına düşməyəcəyinə arxayın olarsa, orada təhsil almasına məhdudiyyət qoyulmur. Əks təqdirdə isə, icazə verilmir.

***Məsələ 531.*** Bəzi qərb ölkələrində bir sıra rəssamlar küçələrdə, meydanlarda müəyyən məbləğdə ödəniş müqabilində şəklini çəkdirmək istəyən şəxsləri üzlərini təsvir etmək üçün qarşılarında oturdaraq diqqətlə izləyirlər. Müsəlman qadın həmin rəssamlardan şəklinin çəkilməsini xahiş edə bilərmi?

***Cavab:*** Müsəlman qadına yaraşmaz.

***Məsələ 532.*** Qadınların güləşin müxtəlif növləri ilə məşğul olmasına şəriət tərəfindən icazə verilirmi? Bəs onların şəhvət hissi olmadan kişi güləşçilərin yarıçılpaq bədənlərinə canlı surətdə (idman meydançalarında), yaxud ekran arxasında baxmasına necə?

***Cavab:*** İnsanın özünə və ya başqasına haram hesab olunan dərəcədə zərər (burada: fiziki xəsarət) yetirməsi şəriət tərəfindən yolverilməz hesab olunur. Vacib ehtiyata əsasən, qadınlar kişilərin baş, əl, ayaq və adətən örtülməyən (qollar kimi) digər bədən üzvləri istisna olmaqla, onların bədənlərinin digər hissələrinə şəhvət hissi olmadan belə, hətta ekran arxasından da tamaşa etməməlidirlər.

***Məsələ 533.*** Qadınlar əzadarlıq, sinəzənlik məclislərində köynəklərini çıxaran kişilərin bədəninə baxa bilərlərmi?

***Cavab:*** Vacib ehtiyata əsasən, baxmamalıdırlar.

***Məsələ 534.*** Övladlığa götürülən, yaxud Allah rızası üçün böyüdülən qız uşağı həddi-buluğa çatdıqda onu böyüdən şəxsin (kişinin) yanında hicab bağlamalıdırmı? Həmçinin, həmin şəxsin öz övladı kimi böyütdüyü qızın saçına baxmaqdan, ona toxunmaqdan çəkinməsi vacibdirmi?

***Cavab:*** Bəli, hər iki halda vacibdir və onlar arasında münasibətlərə digər bütün naməhrəmlər üçün qüvvədə olan hökmlər şamil olunur.

***Məsələ 535.*** Nikahdankənar cinsi əlaqənin nəticəsi olan hamiləlik qadın üçün ciddi problemlər yaradarsa və ailəsinin heysiyyətinə xələl gətirərsə, kurtaj (abort) etdirə bilərmi?

***Cavab:*** Normal hallarda dözülməz hesab edilən ciddi problemlərlə üzləşdiyi və kurtajdan başqa çıxış yolu olmadığı halda ana bətnindəki rüşeymə ruhun daxil olmasından öncə bu əməliyyatı həyata keçirə bilər.

***Məsələ 536.*** Qadının şalvar geyinərək bu halda küçəyə çıxmasına, alış-veriş mərkəzlərinə getməsinə şəriətin münasibəti necədir?

***Cavab:*** Şalvar onun bədən quruluşunu, cəzbediciliyini gözlər önünə sərərsə, yaxud bir qayda olaraq bu cür geyimlər əxlaqdankənar hisslərin, günaha meylin yaranmasına səbəb olarsa, geyinə bilməz.

***Məsələ 537.*** Qadın məclislərində diqqət cəlb etmək və daha gözəl görünmək məqsədilə süni saç (parik) taxmağa icazə verilirmi və bu nöqsanları gizlətmək hesab olunurmu?

***Cavab:*** Elçilərdən eyiblərini gizlətmək kimi fırıldaqçılıq hallarına yol vermədən sadəcə gözəl görünmək məqsədi daşıyarsa, heç bir məhdudiyyət qoyulmur.

***Məsələ 538.*** Heyzli (aybaşı, menstruasiya günlərini keçirən) qadın Qurani-Kərimdən yeddi ayədən artıq oxuya bilərmi (səcdə ayələri istisna olmaqla)? Bəs icazə verildiyi halda məkruh (bəyənilməz) hesab olunurmu? Məkruh hesab olunduğu halda bu kərahət (bəyənilməzlik) qadının qiraətinə görə daha az savab qazanması anlamını daşıyır?

***Cavab:*** Həmin günlərdə qadın vacib səcdə ayələri istisna olmaqla Qurani-Kərimin bütün ayələrini oxuya bilər. Yeddi ayədən artıq oxumağın məkruhluğuna gəlincə, bu sualda da deyildiyi kimi başqa günlərlə müqayisədə daha az savab qazanılması deməkdir.

# Məhrəm və naməhrəm

Kimlərin bir-birinə naməhrəm olduğunu bilmək üçün əvvəlcə kimlərin məhrəm olduğunu öyrənməliyik. Çünki məhrəmlərin sayı və təbəqəsi şəriətdə dəqiq məlumdur; məhrəm olmayan hər kəs isə naməhrəm sayılır. Ərəb dilində «məhrəm» sözü «haram» kökündəndir və «qadağan edilmiş, haram olunmuş» mənasını verir. Başqa sözlə desək, o kişi və qadın məhrəm sayılırlar ki, onların bir-biri ilə evlənməsi heç zaman mümkün deyil. Məhrəm kişi və qadın istər evli olsunlar, istərsə də subay, istər keçmiş həyat yoldaşlarından boşanmış olsunlar, istərsə də onun vəfatı nəticəsində dul qalsınlar, aralarında hər nə qədər yaş fərqi olsa da, heç bir istisna qəbul edlmədən bir-biri ilə ailə qura bilməzlər.

Məhrəmlik üç yolla yaranır: əsil-nəsəb vasitəsilə, evlənməklə və süd verməklə.

**1. Əsil-nəsəb vasitəsilə** bir-birinə məhrəm olanlar aşağıdakılardır: kişiyə öz anası, bacısı və qızı məhrəmdir. Qadına da öz atası, qardaşı və oğlu məhrəm sayılır. Bu qohumluq əlaqələri düz xətt üzrə yuxarıya və aşağıya doğru da davam edir. Yəni kişiyə öz anası məhrəm olduğu kimi, nənəsi (anasının və atasının anası), anasının və atasının nənələri də məhrəmdir. Kişiyə öz bacısı məhrəm olduğu kimi, bacısının qızları və nəvələri də məhrəmdir. Kişiyə öz qızı məhrəm olduğu kimi, qızının qızı və qızının nəvəsi də məhrəm sayılır. Eləcə də, qadına öz babası, ulu babası, qardaşı oğlu və qardaşı nəvəsi, öz nəvəsi və nəticəsi də məhrəmdir. Bunlar məhrəmlikdə ən əsas və birinci təbəqə sayılırlar.

Bunlardan əlavə, əsil-nəsəb yolu ilə məhrəmliyin ikinci təbəqəsi də var. Yəni məhrəmlik əlaqəsi ata-ana və nənə-baba qollarında şaxələnir. Atanın qardaşı (əmi) və bacısı (bibi), ananın qardaşı (dayı) və bacısı (xala) da məhrəmdirlər. Eləcə də, babanın və nənənin qardaş və bacıları da məhrəmdir (yəni atanın və ananın dayısı, xalası, əmisi, bibisi). Amma bunların övladlarına məhrəmlik şamil edilmir. Yəni əmi məhrəm olsa da, əmioğlu naməhrəmdir. Xala məhrəm olsa da, xalaqızı naməhrəm hesab edilir. Bibi və dayı uşaqları da beləcə naməhrəmdirlər. Adamın atasının və anasının əmisi uşaqları, dayısı uşaqları, xalası uşaqları və bibisi uşaqları da adama naməhrəm sayılırlar. Buna görə də, bəzi ailələrdə əmioğlu-əmiqızı arasında bacı-qardaş münasibətləri mövcud

olsa belə, onlar yenə də naməhrəmdirlər və bir-biri ilə evlənə bilərlər.

Birinci təbəqəyə məxsus məhrəmlər birtərəfli ögey olsalar belə, məhrəmlik şərti etibarlıdır. Yəni ögey ata-ana da doğma ata-ana kimi məhrəmdir. Anabir və ya atabir bacı-qardaş bir-birinə məhrəmdirlər. Ögey oğul (yəni qadının ərə getdiyi kişinin əvvəlki arvadından olan oğlu) və ogey qız (kişinin evləndiyi qadının əvvəlki ərindən olan qızı) məhrəmdir. Ögey əmi, dayı, xala və bibi də məhrəm sayılırlar (insanın atası və ya anası ilə birtərəfli ogey olmaq şərti ilə). Yəni, məsələn, adamın atasının atabir (anabir) qardaşı (bacısı), anasının atabir (anabir) qardaşı (bacısı) məhrəmdir.

Amma ikinci təbəqəyə məxsus məhrəmlərdə ögeylik varsa, məhrəmlik pozulur. Yəni adamın atabir ögey qardaşının dayısı (xalası) adama məhrəm deyil. Çünki atabir ögey qardaşın dayısı adamın doğma anasının qardaşı deyil, ögey anasının qardaşıdır. Anabir ögey bacının əmisi və bibisi də eyni yolla naməhrəmdir.

Əgər ögeylik hər iki tərəflidirsə, arada məhrəmlik əlaqəsi qalmaz. Təsəvvür edin ki, bir kişi arvadından boşanır və oğlu ilə qalmağa başlayır. Başqa bir qadının da əri vəfat edir və qadın öz qızı ilə tək qalır. Bu kişi ilə qadın evlənirlər. Bu halda kişinin oğlu ilə qadının qızı da evlənə bilərlər (baxmayaraq ki, cəmiyyətdə bunları bəzən ögey bacı-qardaş sayırlar). Çünki qadın kişinin oğluna ögey ana sayılır, amma qadının qızı oğlana ögey bacı sayılmır; çünki qız oğlanın atasından deyil, başqa kişidən doğulub.

2. Məhrəmliyin **ikinci növü evlənmə vasitəsilə** yaranır. Yəni kişiyə öz qaynanası, qadına da öz qaynatası məhrəmdir. Eləcə də, qaynananın anası da kürəkənə məhrəm sayılır. Qaynatanın atası da gəlin üçün məhrəmdir. Amma qayın və baldız məhrəm deyillər. Ona görə də, əgər qadının əri vəfat etsə, qadın öz keçmiş qaynatasına ərə gedə bilməz, amma keçmiş qaynına ərə gedə bilər. Həmçinin, kişi öz arvadını boşayandan sonra onun anası ilə evlənə bilməz, amma bacısı ilə evlənə bilər. Burada daha bir incə məsələ var. kişi eyni zamanda iki bacı ilə evlənə bilməz. Bunun səbəbini müxtəlif cür izah etmişlər. Səbəblərdən biri də bu ola bilər ki, bacılar arasında rəqabət və düşmənçilik yaranmasın deyə, şəriətimiz bunu qadağan edib. Amma bu, o demək deyil ki, kişi ilə baldızı arasında məhrəmlik mövcuddur. Onların arasındakı evlənmək

qadağanı müvəqqətidir; kişinin arvadı vəfat etsə və ya ayrılsalar, kişi öz keçmiş baldızı ilə ailə qura bilər.

Qaynana-kürəkən və qaynata-gəlin arasındakı məhrəmlik münasibəti ögeylik halında pozulur. Yəni kişinin ogey oğlunun arvadı kişiyə məhrəm deyil. Qadının ögey qızının əri də qadına məhrəm deyil. Həmçinin, övladlığa qəbul etmə hallarında da məhrəmlik öz qüvvəsini itirir. Yəni bir ailə övladlığa oğul götürsə, oğulun arvadı atalığa naməhrəm olacaq (eləcə də, övladlığa qız götürsələr, qızın əri analığa naməhrəmdir). Bunu daha yaxşı anlamaq üçün Həzrət Mühəmməd Peyğəmbərin (s) başına gəlmiş bir hadisəni yada salmaq kifayət edər. Cahiliyyə dövründə ögey ata da oğulluğunun arvadına məhrəm sayılırdı. Amma Islam şəriəti bunu ləğv etdi və Peyğəmbərin oğulluğa götürdüyü Zeyd öz həyat yoldaşını boşadıqdan sonra Peyğəmbər o qadınla evləndi.

Kişinin əmisi və dayısı qadına naməhrəmdir. Qadının xalası və bibisi də kişiyə naməhrəmdir.

**3. Məhrəmliyi yaradan vasitələrdən biri də südvermədir.** Amma hər südvermə məhrəmlik yaratmaz. Südvermənin bəzi şərtləri vardır ki, bunlar risalələrdə ətraflı təsvir edilib. Yalnız həmin şərtlər daxilində baş vermiş südvermə məhrəmlik yaradır. Yuxarıda əsil-nəsəb yolu ilə yaranmış məhrəmlikdə doğmalarla yanaşı, süd qohumları da məhrəm sayılırlar. Yəni kişiyə süd anası, süd nənəsi, süd bacısı, süd bacısının oğulları (nəvələri), arvadının süd verdiyi qız və onun balaları məhrəmdir. Qadına da süd atası, süd babası, süd qardaşı, süd qardaşının qızları (nəvələri), özünün süd verdiyi oğlan və onun balaları məhrəm sayılırlar. Süd əmisi, dayısı, bibisi və xalası da məhrəmdirlər. Evlənmə yolu ilə məhrəm olanlar südvermə halında da məhrəm sayılırlar. Yəni kişiyə arvadının süd anası, süd qızı məhrəmdir. Qadına ərinin süd atası və süd oğlu məhrəmdir. Kişi öz süd atasının arvadı ilə (yəni ona süd vermiş qadının ərinin başqa arvadı ilə) məhrəmdir. Kişinin arvadı bir oğlan uşağına süd vermişsə, kişi həmin oğlanın arvadına məhrəm sayılır (doğma qaynatası kimi). Bütün bunlar müvafiq şəkildə qadına da aiddir. Yəni qadının süd anasının əri qadına məhrəmdir. Qadının süd qızının əri də həmin qadına məhrəm sayılır (doğma kürəkəni kimi).

Məhrəm şəxslərə qarşılıqlı münasibətlər zamanı şəriətdə bəzi güzəştlər verilir. Yəni qadın özünə məhrəm olan kişinin yanında saçını, boynunu, boğazını açıq qoya bilər. Məhrəmlərin yanında örtülməsi əxlaqa zidd olmayan hüdudda bədən üzvlərini açıq saxlamağa icazə verilir. Yəni qadın qollarının, ayaqlarının, sinəsinin bəzi yerlərini məhrəm kişidən gizlətməyə də bilər. Amma bu, elə bir həddə olmalıdır ki, cəmiyyətdə normal qəbul edilsin və əxlaqsızlıq sayılmasın. Məsələn, əgər qadın biləkdən aşağı əlləri istisna olmaqla bütün qolunu naməhrəmdən gizlətməlidirsə, məhrəm kişinin (ata, qardaş, oğul, qaynata, əmi, dayı və s.) bütün qolunu açıq qoya bilər. Əgər naməhrəm kişinin gözləri qarşısında öz ayaqlarını topuğa kimi bağlamalıdırsa, məhrəmin qabağında dizindən aşağı olmaq şərti ilə bir qədər qısa paltar geyinə bilər. Qadının sinəsi naməhrəm kişidən bütövlükdə gizdi qalmalı olduğu halda, məhrəm kişinin yanında görünməsi əxlaqa zidd olmayan miqdarda sinənin bir hissəsini açıq saxlamaq caizdir.

Bu sadalanan şəxslərdən başqa bütün insanlar bir-birinə naməhrəm sayılırlar və qarşılıqlı münasibətlər zamanı naməhrəmlik şərtlərini gözləməlidirlər. Şəriətə görə qadın özünə naməhrəm olan kişiyə yalnız sifətini (dəstəmazda yuyulan hüdudda) və biləkdən aşağı əllərini göstərə bilər. Kişi özünə naməhrəm olan qadının bədəninin heç bir yerinə şəhvət məqsədi ilə baxa bilməz; hətta sifətinə və biləkdən aşağı qollarına belə. Amma şəhvət məqsədi olmasa, həmin yerlərə baxa bilər. Qadın da kişinin adətən açıq qoyulması normal sayılan bədən üzvlərinə (başına, boyun-boğazına, dirsəkdən aşağı qoluna, dizdən aşağı ayağına) şəhvət qəsdi olmadan baxa bilər. Amma şəhvət qəsdi ilə hətta bu bədən üzvlərinə baxması da haramdır.

Naməhrəm şəxslərin bir-birinə baxması üzərində bu qədər ciddi qaydalar tətbiq edilmişsə, aydındır ki, onların arasında söhbət, təmas kimi məsələlərdə daha ciddi qaydalar nəzərdə tutulub. Naməhrəm şəxslərin bir-biri ilə şəhvət oyadan, yaxud yad insanlar arasında edilməsi ayıb olan söhbətlər aparması qəti surətdə haramdır. Bəzən bir-birini sevən gənc oğlan və qızlar məhz bu baxımdan günaha düşürlər. Aralarında məhrəmlik yaranmadan, gələcəkdə qurmaq istədikləri ailəyə aid məsələləri indidən müzakirə etmək, bir-birinə intim hisslər yaradan sözlər və komplimentlər demək dinimizdə haram buyurulub. Uzun-uzadı telefon söhbətləri aparmaq və bu zaman etik normalara əhəmiyyət verməmək çox təəssüf ki, müasir gəncliyin ən böyük problemidir.

Naməhrəm şəxslərin əl-ələ tutması, hər hansı təmasda olması, öpüşməsi qadağandır. Bütün bunlar həyatda qadağan olduğu kimi, virtual aləmdə də (telefon, internet, çat və s. vasitəsilə) haramdır. Bir-birini sevən şəxslərin arasında şəriətə uyğun şəkildə kəbin kəsilməyincə, onlar naməhrəm sayılırlar və yuxarıdakı qadağanlara riayət etməlidirlər.

Sonda daha bir problemli məsələyə aydınlıq gətirmək istərdik. Ən böyük günahlardan olsa da, təəssüf ki, cəmiyyətdə buna da ara-sıra rast gəlirik. Bəzən gənclər (hətta evli kişilər də) emosiyaya qapılaraq, bu işin nə qədər böyük günah olduğunu anlamayaraq, ərli qadınlarla qeyri-qanuni münasibət qururlar. Ərli qadın bu kimi münasibətlərə razılıq verirsə, onun əxlaqının hansı səviyyədə olması barədə danışmaq artıq görünür. Bu məsələnin yalnız bir tərəfidir. Bəzən oğlanlar (kişilər) həmin qadının bu əxlaqsız hərəkətinə göz yumaraq, onunla münasibəti davam etdirir və hətta qadın öz ərindən boşanarsa, onunla evlənəcəklərini bildirirlər. Təəssüf ki, haram üzərində qurulan münasibətlər üzündən bəzən ailələr dağılır, qadın ərindən boşanır və görüşdüyü kişiyə ərə gedir. Amma şəriət baxımından bu cür nikah haramdır. Ərli qadın öz ərinə xəyanət edərək, naməhrəm kişi ilə cinsi əlaqədə olsa, hətta ərindən boşandıqdan və ya əri öldükdən sonra belə, görüşdüyü kişiyə ərə gedə bilməz. Onların arasında kəbin kəsilərsə batil sayılır və bu şəxslərin münasibəti ömürlərinin sonuna kimi şəriət baxımından zina kimi qəbul edilir.

# Mündəricat


QADINLARA AİD OLAN ŞƏRİ HÖKMLƏR........3
QÜSL........3
Cənabət qüsulu........3
Cünuba haram olan işlər........4
QÜSL ETMƏYİN QAYDASI........5
Qüsldə şəkk........9
........9
QADINLARA MƏXSUS QÜSLLƏR........10
Heyz qüsulu. (Adət)........10
Heyz qanının əlamətləri........10
Heyz qanının şərtləri........10
HAİZ QADINLARIN NÖVLƏRİ........14
Vəqtiyyə və ədədiyyə adət sahibi olan qadın........15
Vəqtiyyə adəti olan qadın........16
Ədədiyyə adəti olan qadın........17
Müztəribə olan qadın........18
Mübtədiə olan qadın........19
Nasiyə*........20
HAİZ QADINA HARAM OLAN İŞLƏR........21
Nifas........22
İSTİHAZƏ........25
İstihazənin hökmləri........26
Mütəvəssitə istihazədə hər namaz üçün əməllər**........26
Kəsirə istihazədə hər namaz üçün əməllər........27
Qadın məsələləri barəsində bir neçə şəri suala cavab:........28
TƏYƏMMÜM (1)........30
Necə təyəmmüm edək:........30
TƏYƏMMÜM (2)........32
Təyəmmümün səhih olduğu şeylər........33
QADINLARI MARAQLANDIRAN MÜXTƏLİF HÖHMLƏR........35